# SAĞLAMLIĞIN QORUNMASINDA EKOLOJİ AMİLLƏRİN ROLU

**Çimnaz Namazova**

*AR ETN Genetik Ehtiyatlar İnstitutu, Bakı*
*Cimnaz.namazova@mail.ru*

Yaşadığımız atmosfer, dünya əhalisinin normal, sağlam və uzunömürlü yaşaması üçün bütün lazım olan xüsusiyyətləri özündə birləşdirir. Lakin son illərdə insanların sayının artması, atmosferə atılan lazımsız tullantılar, nəqliyyat vasitələrinin həddən artıq çox olması və havaya buraxdıqları zəhərli tüstülər, zavod və fabriklərin istehsal etdiyi lazımsız qazlar yaşadığımız ekologiyanı çirkləndirir və insanların sağlanmlığına xüsusi zərər verir.

Keçən əsrin axırlarından başlayaraq insanları bürüyən və tibb elminin baş çıxartmadığı bir çox əlaqəsiz xəstəliklər meydana gəldi ki, bu da bəşəriyyətin ən böyük problemlərinə çevrildi. Bir tərəfdən tex-nogen amillərin təsirindən yaranan əlverişsiz təbii şərait nəticəsində günəşdən gələn radioaktiv maddələrin insan orqanizminə göstərdiyi mənfi təsir, digər tərəfdən qəbul etdiyimiz qida maddələrinin tərkibinə daxil edilən zəhərli kimyəvi maddələrin göstərdiyi məhvedici təsir, başqa bir tərəfdən insan mənəviyyatının zəiflənməsi ilə əlaqədar meydana çıxan mənfi xüsusiyyətlərin - yuxusuzluğun, qorxunun, depressiyaların insan orqanizminə göstərdiyi mənfi təsirlər yaşadığımız xarici mühitdə orqanizm arasında təzad yaradır. Biz çalışmalıyıq ki, xəstəlik meydana çıxana qədərki mərhələdə xəstəliklərə qarşı mübarizə aparaq, çünki xəstəlik əmələ gəldikdən sonra onun aradan qaldırılması üçün daha böyük zəhmətlər çəkməli oluruq. Hər bir insan sağlam yaşaması üçün ekoloji təmiz qidalanma və təbii nemətlərdən çox istifadə olunması, bişmiş ölü qidalara az yer verilməsi vacib şərtlərdəndir. Respublikamızda kifayət qədər təbii nemətlərin olmasına baxmayaraq, son illərdə xarici ölkələrdən idxal olunan məhsullar, yerli genetik ehtiyatlarımızı sıxışdırmağa başlamışdır ki, bu məhsullar yerli məhsullar qədər orqanizmimizi qidalı elementlərlə, vitaminlərlə, enzimlərlə, zülallarla, karbohidratlarla tam təmin edə bilmir.

Bu məqsədlə 2003-cü ildən Genetik Ehtiyatlar İnstitutunda yerli kənd təsərrüfatı bitkilərin bərpası, çoxaldılması və onlar üzərində elmi tədqiqat işlərinin aparılması həyata keçirilir. Tərəfimizdən bostan bitkiləri olan qarpız, yemiş balqabaq bitkilərinin qədim nümunələri bərpa olunub, çoxaldılır və gələcək nəsillərə çatdırmaq üçün Genbanka yerləşdirilir. Məlum olduğu kimi bostan bitkilərin tərkibində sulu karbonlar, pektin maddəsi, nikotin turşusu, karotin, kalium, kalsium, maqnezium, dəmir, sink, $B_1$, $B_2$, C, E vitaminləri, efir yağları, salisil turşusu və 50 % qədər yağ vardır.

Bugünkü sosial şərait, ekoloji tarazlığın pozulması torpaqlarımızın 30 il düşmən işğalında olması hər şeydən qiymətli olan insan sağlamlığına xüsusi zərbə vurmuşdur. Dövlət səviyyəsində yeni proqramların qəbul olunması, yaşıllaşdırma işlərinə xüsusi fikir verilməsi, fauna və floranın daha da zənginləşdirilməsi sağlamlığımızın qorunmasına təkan verir.

Respublikamızın tarixində həmişə ağıllı insanlar, fədakar alimlər, görkəmli şəxsiyyətlər ölkə daxilində olan problemləri vaxtında görmüş, onun qarşısını alıb, dünya səviyyəsi ilə uzlaşdırmışdır.